*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 oktyabr 2019-cu il № 76 (2393) Qiymәti 30 qәpik

# "Qafqaz Qartalı-2019" təlimi

## Müdafiə naziri təlim çərçivəsində "Yüksək səviyyəli Müşahidəçi Günü"ndə iştirak edib



XX əsrin sonlarında sosialist qütbünün çöküşündən sonra formalaşan yeni dünya nizami dövlətlər arasında münasibətlərin tamamilə yeni formalarının yaranmasına gətirib çıxardı. Əgər keçən əsrdə bir sıra hallarda ən yaxın qonşu dövlətlər belə fərqli qütbləri təmsil etdiyi üçün heç bir əməkdaşlıq edə bilmirdilərsə, yeni dünya nizamında daha çox coğrafi qonşuların qarşılıqlı faydalı iqtisadi, siyasi və hərbi əməkdaşlığı prioritet kimi görünür. Bu baxımdan dünyanın ən həssas geosiyasi mövqeyə malik regionlarından olan Qafqazı xüsusi fərqləndirmək olar. Tarixən Qafqazda regional və qlobal güc mərkəzlərinin maraqları əsasında sərhəd dəyişiklikləri, yerli dövlətlər arasında münasibətlər müəyyənləşmişdir.

(Ardı 2-ci səhifədə)



Hərbi qulluqçulara pul əvəzinə natural ərzaq verilməsinə başlandı

4-cü səhifədə



Əlahiddə Ümumqoşun Orduda gənc əsgərlər növbəti xidmət yerlərinə yola salınıblar

5-ci səhifədə



Söz onun həyatıdır

6-ci səhifədə



Azərbaycan Ordusunda futbol birinciliyi keçirildi

8-ci səhifədə

# "Qafqaz Qartalı-2019" təlimi

## Müdafiə naziri təlim çərçivəsində "Yüksək səviyyəli Müşahidəçi Günü"ndə iştirak edib

(Əvvəli 1-ci səhifədə)

Qafqazda yeni əməkdaşlıq formaları Sovetlər İttifaqının dağılması nəticəsində yaranmağa başladı. Qeyd etməliyik ki, yeni minillikdə Azərbaycanın xarici siyasətinə yeni əməkdaşlıq formatı əlavə olunmuşdur. Müstəqilliyin ilk illərindən etibarən respublikamızın beynəlxalq münasibətlər sistemində ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıq prioritet olmuşdur. Yeni mərhələdə isə Azərbaycan xarici siyasətinə üçtərəfli regional əməkdaşlıq formatı əlavə etmişdir. Azərbaycan regional müstəvidə bir neçə üçtərəfli formatın təşəbbüskarı və ya iştirakçısıdır. Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Türkiyə, Azərbaycan-Türkiyə-Türkmənistan və Azərbaycan-Rusiya-İran formatları regional məsələlərin müzakirəsi, əməkdaşlıq əlaqələrinin daha da dərinə inkişafı, birgə layihələrin həyata keçirilməsi baxımından əhəmiyyətli təşəbbüslərdir. Bu yeni trend, eyni zamanda, Azərbaycanın təcavüzkar Ermənistanı çıxmaq şərtilə bütün qonşuları ilə qarşılıqlı faydalı münasibətlərə verdiyi əhəmiyyəti göstərir.





Azərbaycanın təşəbbüskarı olduğu üçtərəfli əməkdaşlıq formatlarından ilki Azərbaycan-Gürcüstan-Türkiyə üçlüyüdür. Bu üçlük Cənubi Qafqazdan əlavə Xəzər-Qara-Aralıq dənizi hövzələrini birləşdirən strateji arealı əhatə edir. Bu üçbucağın formalaşmasının əsasında tarixi və mədəni əlaqələr, coğrafi qonşuluq, vahid tranzit dəhlizinin tərkib hissələri olmaq, birgə iqtisadi əməkdaşlıq üçün əlverişli şərait, hərbi və siyasi iradə dayanır. Hər 3 ölkə bir-biri ilə strateji tərəfdaşdır. Belə ki, Azərbaycan həm Türkiyə, həm Gürcüstanla, eləcə də Türkiyə ilə Gürcüstan öz aralarında strateji tərəfdaşdırlar.

Geosiyasi cəhətdən dünyanın ən həssas bölgələrindən biri olan Qafqazda ayrı-ayrı dövlətlərin müəyyən formatda əməkdaşlığı fərqli reaksiyalara səbəb ola bilər. Qafqazın tarixən təkcə regional güc mərkəzlərinin deyil, həm də qlobal güc mərkəzlərinin diqqətində olmasını nəzərə aldıqda bu reaksiyaların pərdəarxasının nə qədər mürəkkəb olması gözlənilәndir. Buna görə də Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlığı üçün, ilk növbədə, siyasi iradənin vacibliyi qeyd olunmalıdır. Müstəqil Azərbaycanın tarixində ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən daha da inkişaf etdirilərək davam etdirilən mehriban qonşuluq və etibarlı tərəfdaş siyasi xətti dəfələrlə çətin sınaqdan çıxmışdır.

Bu gün üç qonşu dövlətin bütün istiqamətlərdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığı yüksək səviyyədə qurulmuşdur. Azərbaycan, Türkiyə və Gürcüstan ordularının birgə əlaqələrinin nəzərdən keçirilməsi baxımından həyata keçirilən hərbi təlimlər, o cümlədən "Qafqaz Qartalı" təlimləri də buna misaldır. Azərbaycan, Türkiyə və Gürcüstanın xüsusi təyinatlı qüvvələrinin iştirakı ilə keçirilən "Qafqaz Qartalı-2019" birgə hərbi təlimləri həm də təcrübənin inkişaf etdirilməsi və təcrübə mübadiləsi baxımından böyük əhəmiyyətə malikdir. Son zamanlar Cənubi Qafqazın təhlükəsizliyinin təmin edilməsi, hər üç dövlətin, regionun inkişafı naminə fəaliyyətinin uzlaşdırılması birgə hərbi təlimlərin keçirilməsini labüd edir. Bundan başqa birgə təlimlər TANAP və "Transxəzər" qaz kəməri layihələrinə öz töhfələrini verir. Bütün bunlar onu göstərir ki, bu üç dövlətin maraqları və bu maraqlardan irəli gələrək atılan addımlar Türkiyə, Gürcüstan və Azərbaycanın, eyni zamanda, inkişafına səbəb olur. Bu mənada üç ölkənin silahlı qüvvələrinin həyata keçirdiyi birgə hərbi təlimlər mühüm əhəmiyyət kəsb edir. Ona görə də həmin təlimlərin keçirilməsini ən düzgün qərar hesab etmək olar.



Bu günlərdə Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlı qüvvələrinin iştirakı ilə keçirilən "Qafqaz Qartalı-2019" təliminin növbəti mərhələsi icra olunub. Bu mərhələdə xüsusi təyinatlılar terrorçular olan binanın həmlə ilə zəbt edilməsi, eləcə də şərti düşmənin hava hücumundan müdafiə vasitələrinin sıradan çıxarılması üzrə tapşırıqları yerinə yetiriblər. Fəaliyyətlər aviasiyanın dəstəyi ilə həyata keçirilib.



"Qafqaz Qartalı-2019" təliminin planına əsasən, Azərbaycan, Türkiyə və Gürcüstanın xüsusi təyinatlı bölmələri gecə vaxtı gizli və müxtəlif yollarla şərti düşmənin müdafiəsinin dərinliyinə sızıblar.

Xüsusi təyinatlılar vacib strateji və hərbi obyektlərə basqının edilməsi üçün əlverişli mövqelərin tutulması üzrə tapşırıqları yerinə yetirib və şərti düşmənin müdafiəsinin dərinliyindən çıxmaq üzrə fəaliyyətləri icra ediblər.

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov, nazirliyin rəhbər heyəti, Türkiyə Respublikası, Gürcüstan və Pakistan İslam Respublikasından olan yüksək səviyyəli qonaqlar Bakıda keçirilən "Qafqaz Qartalı-2019" birgə təlimləri çərçivəsində təşkil olunan "Yüksək səviyyəli Müşahidəçi Günü"ndə iştirak ediblər.

Müdafiə nazirinə maket üzərində planlaşdırılan fəaliyyətlər və təlimlərin gedişi barədə məruzə olunub.

Sonra təlimin döyüş atışlı mərhələsində aviasiya vasitələrinin dəstəyi ilə ərazidə xüsusi təyinatlı bölmələr tərəfindən müxtəlif tapşırıqlar icra olunub.

Birgə təlimin yekunlarını təhlil edən Müdafiə naziri təlimlərdə iştirak edən hərbi qulluqçuların döyüş hazırlığını yüksək qiymətləndirib və keçirilən təlimlərin ölkələrimizin, o cümlədən strateji əhəmiyyətli regional layihələrin təhlükəsizliyi baxımından vacibliyini qeyd edib. Müdafiə naziri bu təlimlərin ordularımızın yüksək döyüş qabiliyyətinin göstəricisi olduğunu vurğulayıb. Nazir təlim iştirakçılarına gələcək fəaliyyətlərində uğurlar arzulayaraq hər üç ölkənin xüsusi təyinatlılarının təlimlərinin yüksək səviyyədə keçirilməsindən məmnunluğunu ifadə edib.

Sonda Müdafiə naziri təlimdə təmsil olunan ölkələrin nümayəndələrinə hədiyyələr təqdim edib.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda ideoloji iş və mənəvi-psixoloji təminatla bağlı müsabiqə keçirilib





*Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu il üçün döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunda ideoloji iş və mənəvi-psixoloji təminat tədbirləri çərçivəsində müsabiqə keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Ən yaxşı təşviqat işinin təşkili, səyyar ideoloji məntəqə, səyyar ideoloji guşə və ideoloji otağın şurasının fəaliyyəti" nominasiyaları üzrə və bir neçə mərhələdən ibarət olan müsabiqə bölmələr, birləşmə və birlik səviyyəsində keçirilib.

Yarışın yekun nəticələrinə əsasən qaliblər mükafatlandırılıb.

## Ombudsman aparatı nümayəndələri hərbi hissədə olublar

Azərbaycan Respublikası Müdafiə nazirinin və Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (OMBUDSMAN) təsdiq etdikləri birgə plana əsasən, "Ombudsman təsisatı və bu təsisatın hərbi qulluqçuların hüquqlarının müdafiəsi yönümündə apardığı işlər" mövzusunda, həmçinin insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar hərbi hissədə şəxsi heyətlə görüş keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Ombudsman aparatının Hərbi qulluqçuların hüquqi müdafiəsi sektorunun müdiri Fəzail Həsənov və sektorun böyük məsləhətçisi Murad Babayev insan hüquqları, o cümlədən hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı mühazirələr oxuyub və şəxsi heyəti maraqlandıran sualları cavablandırıblar.

## "Nezavisimaya qazeta": Paşinyan rejimi ölkədə qarşılıqlı nifrət ab-havası yaradıb

2018-ci ilin aprelində Ermənistanda "məxməri inqilab" adlanan siyasi fırıldaq nəticəsində hakimiyyət keçmiş prezident Serj Sarkisyandan Nikol Paşinyana keçib. Lakin bu hadisədən ilyarım keçsə də, Ermənistan demokratik ölkəyə çevrilməyib.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Rusiyanın "Nezavisimaya qazeta" nəşrindəki məqalədə yer alıb. Qəzet yazır ki, Ermənistan konstitusiya və qanunlarla deyil, qeyri-hökumət təşkilatlarının nizamnamələri ilə idarə olunur. Keçmiş prezident Sarkisyan 2010-2017-ci illərdə bilərəkdən ölkədə Qərb fondları, qeyri-hökumət təşkilatları və təriqətləri üçün "yaşıl işıq" yandırıb. Məqsəd isə dövlətçiliyin zəiflədilməsi olub.

Ermənistanda Corc Sorosun Açıq Cəmiyyət Fondu, "İeqovo şahidləri" təriqəti və digər belə təşkilatlar fəaliyyət göstərir. Ümumilikdə, ölkədə 3,5 mindən çox qeyri-hökumət təşkilatı var ki, onların da əksəriyyəti Qərb ölkələri tərəfindən maliyyələşdirilir. Ermənistanın hazırkı hökumətində Qərb qeyri-hökumət təşkilatlarının əməkdaşları işləyir. Məsələn, baş nazirin müavini, bir çox nazirlər, o cümlədən LQBT birliyinin lobbiçisi, mədəniyyət və idman naziri Araik Arutyunyan, təhlükəsizlik şurasının katibi, parlamentin sədri və müavini xarici ölkələrin xüsusi xidmət idarələrinin agentləridir. Rusiya ilə münasibətlərdə isə Paşinyan hökumətinin davranışı qeyri-müəyyəndir.

Məqalədə qeyd olunur ki, Ermənistan hökuməti hakimiyyət strukturlarına Rusiyadakı erməni diasporunun nümayəndələrini inteqrasiya etmək niyyətində deyil. Diaspor üzrə komissar vəzifəsinə ABŞ vətəndaşı Zare Sinanyanın təyin edilməsini yazının müəllifləri Rusiyadakı erməni diasporuna sillə kimi qəbul edirlər. Onların fikrincə, erməni xalqını parçalamağa çalışan Paşinyan rejimi ölkədə qarşılıqlı nifrət ab-havası yaradıb, demokratik cəmiyyət qurmaq adı altında insanların hissləri ilə oynayır. Yeni hakimiyyətin elan etdiyi sevgi və barışıq inqilabı bir çox ictimai və siyasi xadimlərlə haqq-hesab çürüdür, məhkəmə sistemi güclü təzyiqlərə məruz qalır, saxtalaşdırılmış cinayət işləri Ermənistanı avtoritar dövlətə çevirir.

Paşinyan daxili və xarici siyasətdə özünün qeyri-müəyyən hərəkətləri ilə Ermənistan milli təhlükəsizliyi üçün təhdidlər yaradır. O, Sorosla bağlı iki fonda hökumət fondundan böyük məbləğdə vəsait ayırır, ekoloji təhlükə yaradan "Amulsar" qızıl yatağının yenidən işlənilməsi barədə qərar verir, öz rejiminə yararsız insanları siyasi meydandan açıq-aşkar uzaqlaşdırmağa çalışır.

"Nezavisimaya qazeta" yazır ki, son zamanlar Paşinyan "Sasna tserer" terror təşkilatı ilə əlaqələr qurmağa başlayıb. Onlar 2016-cı ildə Paşinyanın birbaşa əmri ilə Yerevan post-patrul xidmətinin binasını zəbt etmişdi. Hadisə nəticəsində ölənlər olsa da, təşkilat üzvlərinə heç bir cəza verilməyib.

## Əlahiddə Ümumqoşun Orduda avtomobil texnikalarının qış mövsümünə hazırlığı yoxlanılıb



*Naxçıvan Qarnizonu qoşunlarında istismarda olan avtomobil texnikalarının qış mövsümünə hazırlığı yoxlanılıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ordu, birləşmə və hissələrə təhkim edilmiş müxtəlif markalı və təyinatlı minik avtomobillərinə, mikroavtobus və avtobuslara baxışın keçirilməsində əsas məqsəd avtomobil texnikalarının qış aylarında fasiləsiz və dayanıqlı istismarını təmin etmək olub.

*Gənc zabitlərimiz*

## "Biz evimizi, elimizi, yurdumuzu qoruyuruq!"

*Ön xətt bölmələrimizdə xidmət edən gənc zabitlərdən biri də Bayram Əliyevdir. Zabit peşə seçiminə özü qərar verir... O, "hərbçi olacam, ömrümü hərb peşəsinə bağlayacam" deyib, sənədlərini Heydər Əliyev adına Hərbi Liseyə hazırlayır. Uğurlu göstəricilərlə liseyə daxil olur. Kursantlıq dövrünün ilk vaxtlarında yaranan çətinliklərdən qorxmur, əksinə, bu çətinliklərin öhdəsindən bacarıqla gəlir. Vaxtilə orta məktəbdə nümunəvi şagirdlər sırasında adı çəkilən Bayram təhsil aldığı Hərbi liseyin də nümunəvi kursantı olur. Hərbi liseyi uğurla başa vurduqdan sonra tam hazırlıqlı kursant kimi hərbi təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirir.*




Bu gün gənc zabit B.Əliyev cəbhə xəttində xidmət edən, ömrünü müqəddəs hərb sənətinə bağlayan, Vətəni, torpağı qorumağa və onun uğrunda canından keçməyə hazır olan yüzlərlə peşəkar, vətənpərvər zabitlərimizdən biridir. Hər dəfə ön xətt bölmələrində belə Vətən oğullarının xidmət etdiyini görəndə qürur hissi keçiririk. Düşmənlə üzbəüz mövqelərdə xidmət edən ordumuzun zabit heyəti daim döyüş bacarıqlarını artırır və tabeliklərində olan şəxsi heyəti hər an döyüş əmrinə hazırlayır.

Müsahibim B.Əliyev bizimlə söhbətində hər bir Azərbaycan oğlunun Vətəni müdafiə etməyə, onu yağı düşməndən qorumağa borclu olduğunu dedi: "İllərdir erməni vəhşiləri Vətənimizin sakitliyini pozub. Cəbhə xəttində atəşkəs olmasına baxmayaraq, düşmən tez-tez iriçaplı silahlardan döyüş mövqelərimizi, bəzən yaşayış məntəqələrimizi, dinc sakinlərimizi atəşə tutur. Buna baxmayaraq, əhali ordumuza güvənərək arxayınlıqla öz şəxsi təsərrüfatlarında gecə-gündüz işləyir. Əhali güclü ordumuza, peşəkar hərbçilərimizə güvənərək təmas xəttinə yaxın məsafədə yerləşən evlərini heç vaxt tərk etməyib. Onlar yaxşı bilirlər ki, gecə-gündüz səngərlərdə Vətənimizin keşiyində cəsarətlə dayanan Murad, Samid, Mübariz, Fərid kimi igid oğullarımızın davamçıları var. Aprel döyüşlərində xalqımızın tarixinə qəhrəmanlıq səhifəsi yazan o oğulların yolunu bu gün biz davam etdiririk. Torpaqlarımızın azadlığı uğrunda yenidən döyüşlər başlayarsa, düşmən daha ağır cəzalandırılacaq. Azərbaycan bizim evimizdir. Azərbaycan bizim doğma yurdumuzdur. Biz öz evimizi, elimizi, yurdumuzu qoruyuruq. Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Vətənimizin ərazi bütövlüyü uğrunda döyüş əmrinə hər birimiz hər an hazırıq".

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Hərbi qulluqçulara pul əvəzinə natural ərzaq verilməsinə başlandı

*Ordu quruculuğu işinin dövlət rəhbərliyi səviyyəsində prioritet elan olunması və bu sahədə kompleks tədbirlərin həyata keçirilməsi qısa zaman kəsiyində müvafiq sahədə ciddi uğurların əldə edilməsi ilə müşayiət olunur. Belə ki, dövlət büdcəsindən orduya ayrılan xərclərin ilbəil artırılması, şəxsi heyətin ixtiyarında olan silah-sursatın və hərbi texnikaların modernləşdirilməsi, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində imzalanan qərar və sərəncamlar ölkənin müdafiə qüdrətini dəfələrlə artırıb, Azərbaycan Ordusunun döyüş hazırlığında yeni keyfiyyət göstəricilərinin əldə olunmasına rəvac verib.*





Hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə atılan növbəti addımlardan da biri Azərbaycan Ordusunda və qanunvericilikdə nəzərdə tutulan digər hərbi birləşmələrdə xidmət edən hərbi qulluqçulara pul əvəzinə natural ərzağın verilməsi oldu.

Pul əvəzinə natural ərzağın verilməsi könüllü olduğundan bəzi hərbi qulluqçular bu prosesə öz arzusu ilə qoşuldular. Kampaniyanın həyata keçirilməsi məqsədilə Müdafiə Nazirliyinin hərbi hissələrindən birində hərbi qulluqçulara pul əvəzinə natural ərzağın paylanmasına start verildi.

Bu məqsədlə Müdafiə Nazirliyinin "N" hərbi hissəsində olduq. Hərbi hissənin zabiti öz arzusu ilə bu kampaniyanın iştirakçısı olan polkovnik Ədalət Hacıyev bu gün ölkəmizin sosial-iqtisadi tərəqqisinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu bildirdi: "Müasir Azərbaycan dövlətinin qurucusu ümummilli lider Heydər Əliyevin sosialyönümlü iqtisadi inkişaf strategiyasının Prezident, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilməsi nəticəsində bu gün ölkəmizin sosial-iqtisadi tərəqqisi keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Hazırda Azərbaycanda prioritet istiqamətlərdən biri də sosial siyasətdir. Davamlı olaraq həyata keçirilən bu siyasətin məntiqi nəticəsi kimi ciddi infrastruktur layihələri, artan əmək haqları və müavinətlər, əhalinin rifah halının yüksəldilməsi istiqamətində atılan addımlar nümunə göstərilə bilər. Qeyd edim ki, pulun natural ərzaqla əvəzlənməsi kampaniyası ilk dəfə olaraq həyata keçirilmir. Belə bir ənənə əvvəllər də mövcud idi. Bu qərar veriləndə, yəni pul və ya ərzaq seçimi ortaya çıxanda mən natural ərzağa daha çox üstünlük verdim. Bu günlərdə ölkə başçısının bütün güc strukturlarının, o cümlədən Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin dövlət büdcəsindən maliyyələşdirilən qurumlarının hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə imzaladığı sərəncam, eyni zamanda, bu gün hərbi hissəmizdə ərzaq əvəzinə pul kompensasiyası alan hərbi qulluqçulara pul əvəzinə natural ərzağın verilməsi də bu qəbildəndir.

Pul əvəzinə natural ərzaq almağa üstünlük verən hərbi qulluqçu baş çavuş Əsmayə Hidayətova isə qeyd etdi ki, bu addım sosial rifahımızın yaxşılaşdırılması istiqamətində atılan növbəti addımlardandır. "Prezidentimiz tərəfindən göstərilən diqqət və qayğının nəticəsidir ki, ordu quruculuğu işində aparılan islahatlar, vaxtında və yüksək səviyyədə həyata keçirilən tədbirlər ordumuzda zəruri irəliləyişlərin əldə olunması üçün stimul rolunu oynayır. Sosial-məişət şəraitimizin daim yaxşılaşdırılması, yeni və müasir silah-texnika ilə təmin olunmağımız, aylıq vəzifə maaşlarımızın dəfələrlə artırılması, sağlamlığımızın daim diqqətdə saxlanılması, yeni hərbi şəhərciklərin, daimi və xidməti mənzillərin istifadəyə verilməsi, pul əvəzinə natural ərzağın verilməsi ordu sıralarında xidmət edən hər bir şəxsin mənəvi-psixoloji durumunun yüksək olmasında müsbət rol oynayır. Bu gün könüllü şəkildə öz istəyimizlə aldığımız gündəlik ərzaq tələbatımızın ödənilməsi üçün nəzərdə tutulmuş ərzaqlar - ət, makaron, kartof, soğan, düyü, müxtəlif növ konservlər, qablaşdırılmış süd və adını qeyd etmədiyim müxtəlif növ məhsullar ailəmizin aylıq büdcəsinin gücləndirilməsinə xidmət edir. Ali Baş Komandanımızın rəhbərliyi ilə görülən bu işlər ümumi işlərin yalnız bir hissəsidir. Bu gün Azərbaycan dövlətinin bu mühüm və vacib sahəyə göstərdiyi diqqət və qayğı müvafiq istiqamətdə daha böyük uğurların əldə olunacağına əsaslı zəmin yaradır. Bundan sonra da hər birimiz xidmətimizdə daha məsuliyyətli olacaq, uğurlu xidmətimizlə bizə göstərilən inamı doğrultmağa çalışacağıq.

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Elmi-praktik konfrans

Bu günlərdə cəbhəboyu zonada yerləşən hərbi hospitalda hərbi həkimlərin və digər səhiyyə ocaqlarında çalışan tibb işçilərinin iştirakı ilə konfrans keçirildi.

Əvvəlcə iştirakçılar xalqımızın ümummilli lideri Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü, suverenliyi uğrunda döyüşlərdə həlak olanların xatirəsini yad etdilər.

Tibb xidməti polkovniki İlqar Əliyev son illər ölkəmizdə, bütün istiqamətlərdə olduğu kimi, hərbi səhiyyə sahəsində də yeni nailiyyətlərə imza atıldığını bildirdi. Zabit qeyd etdi ki, respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində bu gün ordu quruculuğu sahəsində böyük yüksəlişə nail olunub. "Azərbaycan Ordusu dünyanın ən güclü, qüdrətli orduları sırasında dayanıb. Bu yüksəliş tibb sahəsində də geniş miqyasda özünü göstərməkdədir. Hərbi qulluqçuların sağlamlıqlarının qorunması istiqamətində məqsədyönlü tədbirlər uğurla davam etdirilir. Yeni hospitallar, sağlamlıq ocaqları tikilib istifadəyə verilib. Gördüyünüz hospital da bölgədə hərbi səhiyyənin inkişafında atılan uğurlu addımlardandır. Əsas məqsədimiz Vətənə, xalqa sədaqətlə xidmət edən Vətən müdafiəçilərinin sağlamlığı keşiyində böyük fədakarlıqla dayanmaqdır. Tədbirlərin, konfransların keçirilməsində əsas məqsəd tibb elminin son naliyyətləri ilə yaxından tanış olmaq, silahdaşlarımızla fikir mübadiləsi aparmaq, qarşıya çıxan problemlərin həlli istiqamətində birgə fəaliyyət göstərməkdir."

Gəncə şəhər Tibb Mərkəzinin əməkdaşı Şəhla Verdiyeva "Diabet xəstələrində kardiovaskulyar problemlərə yanaşma", Gəncə kardiologiya xəstəxanasının həkimi, tibb elmləri namizədi Vüqar Abbasov yeni tövsiyələrə əsasən, "Hiperteniya xəstəliyi ilə yanaşı gedən xəstəliklərin müalicəsi", polkovnik-leytenant Roman Çobanov "Cərrahlıq praktikasında tromboembolit ağırlaşmaların advekat profilaktikası" mövzularında məruzələr etdilər. Çıxış edənlər son illər xəstəliklərin müalicəsində tətbiq olunan müasir üsul və vasitələrdən, yeniliklərdən ətraflı bəhs etdilər. Bildirdilər ki, qarşılıqlı əməkdaşlıq, fikir mübadiləsi fəaliyyətin səmərəliliyinin artırılmasında əsas amillərdəndir. İstər hərbi qulluqçuların, istərsə də vətəndaşlarımızın sağlamlıqlarının qorunması həyati əhəmiyyətli məsələdir. Bu istiqamətdə ölkə rəhbərliyi tərəfindən genişmiqyaslı islahatlar həyata keçirilir.

Konfrans iştirakçıları hərbi hospitalda yaradılan şəraitlə tanış oldular və yaradılan yüksək şəraitə, təminata görə ölkə başçısına minnətdarlıq ifadə etdilər.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# Əlahiddə Ümumqoşun Orduda MTT üzrə komandir müavinləri ilə məşğələ keçirilib



Əlahiddə Ümumqoşun Orduda maddi-texniki təminat üzrə komandir müavinlərinin, zirehli tank xidməti və texniki nəzarət məntəqə rəislərinin cəlb edilməsi ilə məşğələ keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, məşğələ zamanı hər növə məxsus zirehli tank texnikalarının avtomobil parkından çıxması və parka qayıtması, texnikalara göstərilən gündəlik texniki xidmətin ardıcıllığı və praktiki yerinə yetirilməsi nümayiş etdirilib.

Məşğələdə texnikalar parkdan çıxan zaman park növbətçisinin və texniki nəzarət buraxılış məntəqə rəisinin praktiki fəaliyyəti də öz əksini tapıb.

Müxtəlif təlim yerlərində icra olunan fəaliyyətlərdə əsas məqsəd məşğələyə cəlb olunmuş heyətin peşəkarlığının artırılması, praktiki vərdişlərinin təkmilləşdirilməsi olub.

# "Azərbaycan Qrup 77 təşkilatına töhfə verməyə hazırdır"

BMT Baş Assambleyasının Nyu-York şəhərində keçirilən iclası çərçivəsində Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov Qrup 77 (G-77) təşkilatının 43-cü illik iclasında iştirak edib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan G-77 qrupuna təşkilatın 135-ci üzvü qismində qoşulub.

Əsas məqsədi beynəlxalq inkişaf və iqtisadi əməkdaşlıq məsələləri ilə bağlı birgə mövqedən çıxış etmək olan və sıralarında bu günədək 134 üzv ölkəni birləşdirən G-77, iqtisadi və sosial məsələlər üzrə BMT-dən sonra dünyanın ən çox dövlətini bir araya gətirən birlikdir. BMT çərçivəsində fəaliyyət göstərən bu təşkilat inkişaf etməkdə olan ölkələrin mövqeyini, o cümlədən BMT-nin dayanıqlı inkişaf məqsədlərinin icrası istiqamətində inkişaf etməkdə olan ölkələrin maraqlarını müdafiə etmək və bu istiqamətdə BMT-nin bütün qərargahlarında birgə mövqedən çıxış etmək məqsədi güdür.

G-77 qrupun iclasında çıxışı zamanı nazir Elmar Məmmədyarov Azərbaycanın bu təşkilata fəal töhfə verməyə hazır olduğunu və Qoşulmama Hərəkatına sədrliyi dövründə bu iki təşkilat arasındakı münasibətlərin və əlaqələndirmənin inkişafı istiqamətində səylər göstərəcəyini bəyan edib.

# Əlahiddə Ümumqoşun Orduda gənc əsgərlər növbəti xidmət yerlərinə yola salınıblar

*Əlahiddə Ümumqoşun Orduda gənc əsgərlərin növbəti xidmət yerlərinə yola salınması münasibətilə tədbir keçirilib. Müxtəlif hərbi ixtisaslara yiyələnən gənc əsgərlər mərasimdə öz bacarıqlarını nümayiş etdiriblər.*



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himninin səsləndirildiyi tədbirdə çıxış edən zabit, əsgər və valideynlər gənc əsgərləri ixtisas hazırlığı kursunu uğurla başa vurmaları münasibətilə təbrik ediblər.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdıran general-mayor Teymur Eyyubov bildirib ki, bu gün xalq-ordu birliyindən ruhlanan hərbi qulluqçularımız Vətənimizin müdafiəsində ayıqsayıq dayanır, övladı hərbi xidmət keçən hər bir valideyn böyük sevinc və qürur hissi keçirir. İnanırıq ki, ixtisas hazırlığı kurslarını uğurla başa vuran əsgərlərimiz də Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda rəşadət göstərən igid oğullarımızın yolunu davam etdirərək ən çətin döyüş tapşırıqlarını şərəflə yerinə yetirəcəklər.

Təbrik oxunduqdan sonra müxtəlif ixtisaslar üzrə elementləri praktiki yerinə yetirən əsgərlər qazandıqları bilik və bacarıqları peşəkar döyüşçü kimi nümayiş etdiriblər.

Ən yaxşı tabor, bölük və taqım adına layiq görülən bölmələrə keçici bayraqlar təqdim edilib, nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçular mükafatlandırılıblar.

Təntənəli keçiddən sonra "Əsgər marşı" ifa edilib və əsgərlər növbəti xidmət yerlərinə yola salınıblar.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***1 oktyabr 2019-cu il.*** Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Ayqepar və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli və Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Əlahiddə Ümumqoşun Orduda komanda-qərargah təlimi başlayıb



"Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı"na əsasən komanda-qərargah təlimi başlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimin keçirilməsində məqsəd birləşmə və hissələrin döyüşə hazırolma vəziyyətinin yoxlanılması, mühafizədən müdafiəyə keçərkən uzlaşmış fəaliyyətə nail olunması, müdafiə döyüşünün aparılması zamanı döyüş düzülüşü elementlərinin yerinə yetirilmə fəaliyyətinin təkmilləşdirilməsidir.

Komanda-qərargah təlimi oktyabrın 5-dək davam edəcək.

# "Saber Junction-19" təlimi başa çatıb

*ABŞ Avropa Komandanlığı (EUCOM) tərəfindən Almaniyanın "Hohenfels" təlim mərkəzində keçirilən "Saber Junction-19" çoxmillətli briqada taktiki təlimi başa çatıb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimdə iştirak edən hərbi qulluqçularımız qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəliblər və onların peşəkarlığı beynəlxalq müşahidəçilər tərəfindən yüksək qiymətləndirilib.

Bu cür təlimlərin iştirakçı ölkələrin orduları arasında təcrübə mübadiləsi, əməliyyat uyarlılığının əldə olunması, bölmələrin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi və hərbi qulluqçuların fərdi bacarıqlarının təkmilləşdirilməsi baxımından çox mühüm olduğu bildirilib.

# Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il oktyabrın 1-dək 103 milyon 271 min 100,18 manat, 213 min 577,88 ABŞ dolları, 17 min 566 avro və 5000 rubl vəsait yığılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

### *Nümunəvi xidmət*

# "Vətəni qorumaq müqəddəs vəzifəmizdir"

*Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsinin artilleriya bölməsində ezamiyyətdə olduğumuz zaman gizir Emin Quliyevlə tanış olduq. "Bu gün ordu sıralarında xidmət edən hər bir kəsin borcu ordumuzun inkişafında, şəxsi heyətin hərbi biliklərinin təkmilləşdirilməsində vasitəçi olmaqdır", - deyə müsahibim söhbətə başladı.*



- Vətəni qorumaq ən ali vəzifədir. Hər bir əsgər hərbi vərdişlərə dərindən yiyələnməyə, ona verilən tapşırıqların öhdəsindən layiqincə gəlməyə borcludur. Bunun üçün ordumuzun sıralarında xidmət edən gənc əsgərlərimizlə təcrübəmizi bölüşürük ki, şəxsi heyətin hərbi bilikləri daha da təkmilləşsin. Bu gün xidmət etdiyim bölmənin şəxsi heyəti Ali Baş Komandanımız döyüş əmri verəcəyi təqdirdə döyüş yoldaşımız olacaq. Ona görə də şəxsi heyətin hər zaman qayğı və problemləri ilə də maraqlanır, onların mənəvi-psixoloji vəziyyətini diqqət mərkəzində saxlayırıq. Bundan başqa, döyüş hazırlığının yüksəldilməsinə yönəlik təlimlər, çöl dərsləri və s. təşkil olunur ki, şəxsi heyətin döyüş qabiliyyəti yüksəlsin.

Söhbət əsnasında həmsöhbətimin Aprel döyüşlərinin iştirakçısı olduğunu öyrənirik. Emin Aprel döyüşləri haqqında bəzi xatirələrini bölüşdü: "Ağır döyüşlərdə iştirak etdik. Düşmənin hər zamankı kimi təxribata əl atmaq cəhdi uğursuzluğa düçar oldu. Tarixi zəfərlərimizdən biri olan Aprel döyüşləri zamanı Azərbaycan əsgəri düşmən üçün qorxulu yuxuya çevrildi, qarşı tərəf xeyli itki verdi. Çox qısa müddətdə az bir qüvvə ilə işğal altında olan ərazilərimizin müəyyən hissəsi azad edildi".

**Baş leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

# Söz onun həyatıdır

## VI Beynəlxalq Bakı Kitab Sərgi-Yarmarkası çərçivəsində Əməkdar incəsənət xadimi Abdulla Qurbani ilə görüş keçirildi

*Böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illiyinə həsr olunan VI Beynəlxalq Bakı Kitab Sərgi-Yarmarkası çərçivəsində Prezidentin fərdi təqaüdçüsü, Əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin yaradıcılığına həsr olunmuş "Bir əlində silah, birində qələm" devizi ilə görüş keçirildi.*




Görüşə gənclər, xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin kursantları, ayrı-ayrı qoşun növlərinin nümayəndələri, "ASAN Könüllüləri" Təşkilatının fəalları və sərgi iştirakçıları qatıldılar.

VI Beynəlxalq Bakı Kitab Sərgi-Yarmarkasında Abdulla Qurbaninin 100-ə yaxın kitabı, onun redaktorluğu və tərtibatçılığı ilə hazırlanan 50-yə yaxın albom nümayiş olundu.

Yaradıcılığı barədə iştirakçılara geniş məlumat verən polkovnik Abdulla Qurbani qeyd etdi ki, bəzən döyüşdə ən müasir silahların, texnikaların demədiklərini publisistik söz deyir, şeir misraları deyir.

Uzun müddət respublikanın mədəni-maarif müəssisələrində məsul vəzifələrdə çalışan, yaradıcılığını bütünlüklə hərbi vətənpərvərliyə həsr edən A.Qurbani 1993-cü ildə ulu öndər Heydər Əliyevin Azərbaycan Televiziyası vasitəsilə xalqa müraciətindən sonra Şərur rayon Mədəniyyət Şöbəsinin müdiri vəzifəsindən imtina edərək birbaşa cəbhəyə yollanıb. Füzuli, Cəbrayıl, Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib, sıravi əsgərdən polkovnik rütbəsinədək yüksəlib. Polkovnik Abdulla Qurbani bu gün də Vətən torpaqlarının sadiq keşikçisi kimi xidmətdədir.

Görüşdə "Apostroff-A" nəşriyyatının direktoru Akif Dənzizadə qeyd etdi ki, bu və ya digər kitabın nəşri ilə əlaqədar müəlliflər nəşriyyata müraciət edirlər. "Elə müəlliflər var ki, onun əsərlərini gözləyirsən, bu əsərlər istər nəşriyyatın rəsmisi kimi, istərsə də duyumlu oxucu kimi sənə könül xoşluğu verir. Abdulla Qurbani belə müəlliflərdəndir. Onun təqdim etdiyi əsərlərin məzmununu nəzərə alsaq, bu könül xoşluğu daha da artır. Mən nəşriyyat direktoru kimi taleyimdən razıyam ki, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani kimi vətənpərvər bir insanın kitablarının nəşr prosesinin iştirakçısı olmuşam. Ümid edirəm ki, hələ neçə-neçə belə könül xoşluğu yaşayacam."

Əməkdar jurnalist, istefada olan mayor Rəşid Faxralı Abdulla Qurbani yaradıcılığının şaxələrindən söz açaraq dedi:

- Abdulla Qurbani şairdi, publisistdi, ssenaristdi. Bunlar istedadın bölünməsi deyil, eyni məfkurənin şaxələridi. Şeirlərində dediklərini publisistikası tamamlayır, ssenarilərini rejissorluğu. Onun ssenarisi və rejissorluğuyla keçirilən kütləvi vətənpərvərlik tədbirlərinin hər biri ayrılıqda bitkin sənət əsəridir. İctimailəşdikdən sonra ictimaiyyət bu əsərlərin mahiyyətini əhatəliliyiylə dərk edir ki, bu da cəmiyyətdə vətənpərvərlik duyğularının daha səviyyəli olmasını təmin edir. Bu baxımdan, Abdulla Qurbaninin əsərlərinin sayı xeyli çoxdu. Abdulla Qurbaninin yaradıcılığı nəzəri-publisistik mahiyyətiylə təcrübi-əməli fəaliyyətin vəhdətidir, desək yanılmarıq. Onun ssenarisi və rejissorluğuyla keçirilmiş kütləvi vətənpərvərlik tədbirləri bayram miqyasında, bayram ovqatında olur: "Qarabağa yaz gələcək", "Sənə inanırıq ölkə rəhbəri, sənə güvənirik Vətən əsgəri", "Hər gələn bir bardaq su ilə gəlsin" və s. kimi. Abdulla Qurbani Əməkdar incəsənət xadimidir, Prezidentin fərdi təqaüdçüsüdür, polkovnikdir və azərbaycançılıq ideologiyasının cəfakeşlərindəndir...

"ASAN Könüllüləri" Təşkilatının sədri Səbinə Cabarova və çıxış edən digər fəallar vurğuladılar ki, bu yaxınlarda ön xətdən "Hərbiyyə" hərbi vətənpərvərlik tədbirindən qayıdıblar. Gədəbəydə və Beyləqanda ordu həyatı ilə yaxından tanış olublar. Ən əsası onlar Abdulla Qurbaninin timsalında Vətəni necə sevməyi öyrəniblər.

12 saylı peşə liseyinin müəllimi Nahibə Orucova 1994-cü ildə işlədiyi təhsil müəssisəsində Abdulla Qurbaninin Murovdan gələrək gənclərlə keçirilən görüşünü xatırlatdı. Bildirdi ki, o görüşdən 25 il ötsə də, Abdulla müəllim bu gün də eyni qaynarlıqla yaşamına davam edir və edəcək. "Bu ömür Vətən üçün yaşanılır. Bir insan olaraq onun Vətəninə, torpağına, millətinə bağlılığı mənə Məmməd Arazın "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" misralarını xatırladır... Sözünüz, Vətən eşqiniz heç zaman əksilməsin. Paradlarda sevərək dinlədiyimiz o səs xalqımızı Qələbə ilə müjdələsin".

Leytenant Turab Cəfərov, kursantlar Ceyhun Ağasiyev, Nicat Mirzəyev və başqaları A.Qurbaninin yaradıcılığından danışaraq bildirdilər ki, onun istər poeziyası, istər publisistikası, istərsə də mahnı və hərbi marş mətnləri - şeirləri Vətənə, torpağa məhəbbətdən qaynaqlanır.

Tədbirdə A.Qurbaninin sözlərinə yazılmış mahnılar səsləndirildi, Azərbaycanın milli pilotlarından olan polkovnik-leytenant Rəşad Atakişiyevin xatirəsinə yazdığı "Milli Şahinlər" marşı ilk dəfə təqdim olunub.

Görüşdə tədbir iştirakçılarına A.Qurbaninin "Qeyrət qılıncı", "Sərhəd mənim taleyimdir", "Vətən sənin əsgərinəm", "Ruhumuzun qələbəsi naminə", "Yenilməz qalanın müdafiəsində", "Qar bəbirləri", "Dəmirçioğlunun taleyi", "Ordu gəncləri böyük qüvvədir" və başqa kitabları hədiyyə edilib.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# 1992-ci ildə yaranmış taborun keçmiş döyüşçülərinin görüşü təşkil edilib





Müdafiə Nazirliyi, Tərtər rayon İcra Hakimiyyəti və "Qarabağ Əlillərinə Qayğı" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə əvvəlcə Tərtərdəki Şəhidlər abidə kompleksi, Azərbaycanın Milli Qəhrəmanları Vəzir Orucov və Elman Hüseynovun büstləri önünə əklil və gül dəstələri qoyulub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, sonra rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının və ictimaiyyətin nümayəndələri, Qarabağ müharibəsi veteranları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək xatirəsinə ehtiramlarını bildiriblər.

Tərtər rayon Mədəniyyət Mərkəzində "Babək 44" taboru haqqında çəkilmiş filmin təqdimatı olub. Təqdimatdan əvvəl respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycanın Dövlət himni səsləndirilib.

Filmin ideya rəhbəri, ehtiyatda olan zabit Nazim Quliyev çıxış edərək, "Babək 44" taboru və film haqqında məlumat verib. Bildirib ki, 1992-ci ildə yaradılmış "N" hərbi hissəsinin tərkibində şərəfli döyüş yolu keçmiş "Babək 44" taboru ən qızğın döyüşlərdə göstərdiyi rəşadət və qəhrəmanlıqla seçilib. Tabor 400 nəfərə qədər əsgər və zabitdən formalaşıb, döyüşlərdə 174 şəhid və itkin verib. Taborun döyüşçülərindən ikisi Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb, yeddi nəfər "Azərbaycan Bayrağı" ordeni, iki nəfər isə "Hərbi Xidmətlərə görə" medalı ilə təltif edilib.

Sonra filmə baxış olub. Filmdə taborun yaranma tarixi, keçdiyi döyüş yolu, göstərdiyi qəhrəmanlıqlar, döyüşdüyü əsas ərazilər barədə məlumat verilir. Film çəkilişləri zamanı Dağlıq Qarabağ uğrunda, Ağdərə ətrafında gedən döyüş kadrlarından, həmçinin döyüşlərdə iştirak etmiş şahidlərin, komandirlərin, şəhid valideynlərinin müsahibələrindən istifadə olunub.

Tədbir iştirakçıları "N" hərbi hissəsində əsgər və zabit heyəti ilə görüşüblər. Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxışında keçmiş döyüşçülərin görüşünün təşkilini və "Babək 44" taboru haqqında çəkilmiş filmi yüksək qiymətləndirib, Qarabağ müharibəsi veteranlarına, şəhid ailələrinə göstərilən dövlət qayğısından, xalqla ordunun birliyindən bəhs edib. Bildirib ki, Qarabağ müharibəsi zamanı igidliklə döyüşmüş tərtərlilər bu gün də öz doğma torpaqlarında mətin dayanıb və Ali Baş Komandanın əmri ilə torpaqlarımızın azad olunması uğrunda döyüşə atılmağa hər an hazırdırlar.

"Qarabağ Əlillərinə Qayğı" İctimai Birliyinin sədri Firudin Məmmədov, "Babək 44" taborunun ilk komandirləri Elxan Qəniyev, Abakar Mirzəyev və başqaları çıxış edərək, taborun keçdiyi şərəfli döyüş yolundan, Azərbaycan Ordusunun qüdrətindən danışıblar. Çıxışlarda hərbi qulluqçuların, eləcə də müharibə veteranlarının hər an müqəddəs savaşa hazır olduğu bildirilib. Sonra xidmətdə fərqlənən hərbi qulluqçulara fəxri fərman və hədiyyələr təqdim olunub.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının, Gəncə Qarnizonunun İdeoloji və Mədəniyyət Mərkəzinin və respublikanın tanınmış incəsənət xadimlərinin ifasında geniş konsert proqramı ilə davam edib. Sonda hərbi hissənin şəxsi heyəti ilə birgə nahar olub.

Taborun keçmiş döyüşçüləri ön xəttə gedərək, səngərdə xidmət edən əsgər və zabitlərlə də görüşüblər.

# Milli Qəhrəman Albert Aqarunovun 50 illik yubileyinə həsr olunan beynəlxalq turnir keçirildi

*"Sərhədçi" Olimpiya İdman Mərkəzində Azərbaycanın Milli Qəhrəmanı, tankçı Albert Aqarunovun 50 illik yubileyinə həsr olunmuş ənənəvi "Olimpiya ümidləri" adlı beynəlxalq turnirin təntənəli açılış mərasimi keçirildi. Beynəlxalq xatirə turnirində Müdafiə Nazirliyinin xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin kursantları, bir qrup zabit, əsgər, gizir heyəti, Daxili İşlər Nazirliyinin və digər dövlət qurumlarının, o cümlədən ictimaiyyət nümayəndələri iştirak etdilər.*







Turnir Gənclər və İdman Nazirliyi, Azərbaycan Karate-Do Federasiyaları Assosiasiyası, Azərbaycan Milli Karate Federasiyası, Veteran Tankçılar Birliyi və Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının birgə təşkilatçılığı ilə keçirildi.

Ölkəmizdə multikulturalizmin, tolerantlığın qorunması, gənclərimizdə hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi, Azərbaycanımızın suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda şəhid olan qəhrəmanlarımızın döyüş yolunun təbliği məqsədilə belə beynəlxalq idman tədbirlərinin keçirilməsi artıq ənənəyə çevrilib.

Xatırladaq ki, 2016-cı ildə Azərbaycan Silahlı Qüvvələrinin ildönümü ərəfəsində ordumuzun Aprel zəfərinə və Milli Qəhrəman Albert Aqarunovun xatirəsinə həsr olunmuş karate üzrə Sumqayıt şəhər birinciliyi və 2017-ci ildə Beynəlxalq Şotokan Karate-Do üzrə Azərbaycan filialının V açıq çempionatı, ötən il isə Milli Qəhrəman Albert Aqarunovun xatirəsinə həsr olunmuş Qara dəniz və Xəzəryanı ölkələr arasında karate üzrə beynəlxalq turnir keçirildi. A.Aqarunovun xatirəsinə həsr olunmuş turnir keçən il Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin və Azərbaycan Milli Karate Federasiyasının təqvim planına salınaraq, hər il keçiriləcəyi nəzərdə tutulub.

Beynəlxalq xatirə turniri iştirakçı komandaların üzvlərinin "Heyratı" musiqisinin sədaları altında zala daxil olması ilə başladı. Sonra Müdafiə Nazirliyinin hərbi orkestrinin müşayiəti ilə Dövlət himni səsləndirildi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Açılış mərasimində Azərbaycan Milli Karate Federsiyasının prezidenti Yaşar Bəşirov çıxış edərək bildirdi ki, turnirin "Olimpiya ümidləri" devizi altında təşkil olunması təsadüfi deyil. "Turnirin qalibləri arasından gələcəkdə ölkəmizi Avropa və Dünya çempionatlarında, Olimpiya Oyunlarında təmsil edəcək idmançılar, karateçilər yetişəcəklər. Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Ölkəmiz dəfələrlə irimiqyaslı idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib. 2015-ci ildə ilk Avropa Oyunlarında, iki il sonra təşkil olunan IV İslam Həmrəyliyi Oyunlarında karateçilər də mübarizə aparıblar. Bütün bunlar dövlətimizin başçısı İlham Əliyevin Azərbaycanda karatenin inkişafına göstərdiyi diqqət və qayğının nümunəsidir".

Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurov ölkəmizdə karate üzrə daha bir beynəlxalq yarışın keçirilməsinin idmanın bu növünün respublikamızda inkişafına mühüm töhfə verəcəyini vurğuladı. O, çıxışının sonunda turnirdə iştirak edən komandalara uğurlar arzuladı.

Tədbirin təşkilatçılarından olan Veteran Tankçılar Birliyinin sədri Hacı Əzimov Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovla bağlı döyüş xatirələrindən danışdı. Birliyin sədri igid tankçının xatirəsinə həsr olunan beynəlxalq turnirin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirdi.

Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının sədri Melih Yevdayev Milli Qəhrəman Albert Aqarunovun 50 illik yubileyinə həsr olunan beynəlxalq turnirin təşkilinə görə yəhudi icmasının adından minnətdarlığını ifadə etdi. O, çıxışında Azərbaycanda əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan tolerantlıq siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi nəticəsində ölkəmizin dünyada tolerantlıq məkanı kimi tanındığını vurğuladı. "Biz Azərbaycan xalqı ilə uzun əsrlərdən bəri bir yerdə dostluq, dinc şəraitdə yaşamışıq, daim onların şad günlərinə sevinmişik, dar günlərində bir yerdə olmuşuq".

Daha sonra Azərbaycan idmanının, hərbi vətənpərvərlik ruhunun və multikulturalizmin inkişafındakı xidmətlərinə görə Gənclər və İdman naziri Azad Rəhimov, nazirliyin idman şöbəsinin müdiri Fərid Mansurov, Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov, Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının sədri Melih Yevdayev, Veteran Tankçılar Birliyinin sədri Hacı Əzimov və digər Qarabağ müharibəsi veteranları xatirə medalları və Albert Aqarunov mükafatı ilə təltif olundular.

Beynəlxalq turnirin açılış mərasimi Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun xatirəsinə həsr edilən vətənpərvərlik mahnılarının səsləndirilməsi və xüsusi təyinatlıların nümunəvi çıxışları ilə davam etdi.

Təntənəli açılış mərasimi başa çatdıqdan sonra final görüşləri davam etdi.

Beləliklə, iki gün davam edən beynəlxalq turnirdə 10-dan artıq ölkədən 6-13 yaşlı 800 karateçi birincilik uğrunda mübarizə apardı. Turnirin nəticələrinə görə birinci yeri "Qara Qaplan" komandası tutdu. İkinci pillədə "Zirvə" komandası qərarlaşdı. "Arpaçay" karate klubu isə yarışı üçüncü yerdə başa vurdu.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə qırıcısı ölkənin hava sərhədini altı dəfə pozan pilotsuz aparatı vurub



Suriya ərazisindən qalxaraq Türkiyənin hava sərhədini altı dəfə pozan pilotsuz aparat vurulub.

Türkiyə Milli Müdafiə Nazirliyinin rəsmi saytı xəbər verir ki, hələlik kimə məxsus olduğu müəyyən edilməyən pilotsuz aparat İncirlik Aerodromundan qalxan Türkiyəyə məxsus "F-16" qırıcısı tərəfindən zərərsizləşdirilib. Bildirilir ki, vurulan aparat Çıldıroba ərazisinə düşüb.

## Hindistana məxsus hərbi helikopter Butanda qəzaya uğrayıb



Hindistana məxsus hərbi helikopter qonşu Butan ərazisində qəzaya uğrayıb.

Butanın Yonphula aeroportu yaxınlığında baş vermiş qəza nəticəsində 2 pilot ölüb. Pilotların biri Hindistan, digəri Butan hərbçisi olub. Qəzaya dumanlı havanın səbəb olduğu bildirilir.

Hindistan ordusunun yaydığı bəyanatda deyilir ki, ölkənin Arunaçal Pradeş ştatındakı Xirmu şəhərindən Butanın Yonphula hava limanına uçan helikopter yerli vaxtla saat 13:00 radələrində radarlardan itib. Dərhal axtarış işlərinə başlanılıb və helikopterin qalıqları aşkarlanıb. Qəzaya uğrayan helikopter Hindistan istehsalı olan kiçik ölçülü "Cheetah"dır.

## ABŞ Səudiyyə Ərəbistanında "Patriot" zenit-raket kompleksi yerləşdirəcək



ABŞ Səudiyyə Ərəbistanındakı neft obyektlərinə son hücumlardan sonra Krallıqda "Patriot" zenit-raket kompleksi yerləşdirəcək.

Bu barədə ABŞ Müdafiə Nazirliyinin sözçüsü Jonathan Hoffman cümə axşamı yaydığı açıqlamada bildirib.

Sistemi işlətmək üçün dörd radar və təxminən 200 hərbi personalın Səudiyyə Ərəbistanına göndəriləcəyi qeyd olunur.

## Çin hərbi paradda yeni silah və texnikalarını təqdim edib



Çin Xalq Respublikasının (ÇXR) yaranmasının 70-ci ildönümü münasibətilə oktyabrın 1-də Pekində, Tiananmen meydanında keçirilən hərbi paradda Çin bir neçə yeni silah və hərbi texnikasını ilk dəfə ictimaiyyətə təqdim edib.

Yalnız yerli istehsal silah və hərbi texnikanın nümayiş etdirildiyi paradda ilk dəfə təqdim olunan silahlar arasında "Dongfeng-41" adlı qitələrarası strateji ballistik raket kompleksi də var. Hərbi paradda Çin nüvə-raket qüvvələrinin əsasını təşkil edən 16 ədəd "Dongfeng-41" kompleksinin keçidi olub.

Bundan başqa, orta və kiçikmənzilli "Dongfeng-17" raketləri, yeni Z-20 helikopteri, uzaqmənzilli H-6N strateji bombardmançı təyyarəsi, H-6K orta və qısamənzilli bombardmançı təyyarəsi, CJ-100 səsdən sürətli qanadlı raketi, YJ-18 və YJ-18A gəmi əleyhinə qanadlı raketləri, JL-12 sualtı strateji raketi, çoxmənzilli və fərqli yüksəklikdə uçmaq imkanı olan pilotsuz uçuş aparatları (dron) və s. ilk dəfə bu hərbi paradda geniş ictimaiyyətə təqdim olunub. Paradda, habelə Çinin informasiya texnologiyaları üzrə hərbi bölmələri də ilk dəfə geniş ictimaiyyət qarşısına çıxarılıb. Bu bölmələr informasiya-kommunikasiya texnologiyalarının üstünlüklərindən istifadə etməklə Çin Xalq Azadlıq Ordusunun birləşmələrinə döyüşdə dəstək məqsədi daşıyır. Bölmə həm də meteoroloji, hidroloji müşahidələr və topoqrafik araşdırmalar aparmaq, xəritə və naviqasiya xidmətləri göstərmək üçün nəzərdə tutulub.

Qeyd edək ki, 15 min hərbçinin cəlb olunduğu paradda 160 hərbi təyyarə və 580 hərbi texnika nümayiş etdirilib. Bu, Çin tarixində ən böyük hərbi parad olub.

**AZƏRTAC-ın materialları əsasında**

*Hərbi texnikalar, silahlar*

# "Vena" özüyeriyən artilleriya-minaatan qurğusu



Özüyeriyən 120 mm-lik 2C31 və ya "Vena" minaatan artilleriya qurğusu Rusiyanın Perm şəhərinin Motovilixinsk zavodunda hazırlanıb və PDM-3 qurğusunda quraşdırılıb. Müxtəlif illərdə keçirilən sərgilərdə nümayiş etdirilib. 2C31 və ya "Vena" artilleriya qurğusu 13 kilometrlik məsafədə yerləşən canlı qüvvənin, artilleriya və minaatan batareyalarının, zirehli hədəflərin, atəş vasitələrinin məhv edilməsi üçün nəzərdə tutulub. Həm də qurğu avtomatik olaraq atəşi korrektə edə bilir, sərbəst şəkildə gecə və gündüz hədəfə qarşı kəşfiyyat aparmağa, gizli mövqelərdən atəş açmağa qadirdir.

"Vena"nın silahlanmasına əsas silah kimi kəsikli yarımavtomat 120 mm-lik top daxildir və o da özündə top-haubitsa və minaatan funksiyasını yerinə yetirir. Top bütün növ 120 mm-lik artilleriya minalarından atəş açmağa qadirdir. Hava və yerüstü hədəflərə qarşı atəş açmaq üçün əlavə olaraq komandirin qülləsində məsafədən idarə olunan PKTM pulemyotu da yerləşdirilib. Ərazidə kəşfiyyat aparmaq və topun tuşlanması üçün komandir üçün lazerli uzaqölçən nişangah, opto-elektron gecəgörmə nişangahı, rabitə əlaqəsi yaratmaq üçün "Arbalet" radiostansiya ilə təchiz edilib. Artilleriya qurğusu avtomatlaşdırılmış idarəetmə sistemi ilə də təchiz edilib. 2C31 artilleriya qurğusunun güc qurğusu dördqatlı V şəkilli 10 silindrli, 450 at gücündə UTD-29 mühərrikindən ibarətdir. Qurğuda dizel yanacağından başqa kerosin və benzindən də istifadə edilə bilər.

2C31 və ya "Vena" artilleriya qurğusu tələb olunan bütün müasir tələblərə cavab verir.

Özüyeriyən 2C31 minaatan artilleriya qurğusunun döyüş çəkisi 19,8 tondur, heyəti dörd nəfərdən ibarətdir. Qurğunun gövdəsinin uzunluğu 6856 mm, topla birlikdə uzunluğu 7511 mm, eni 3366 mm, hündürlüyü 3439 mm təşkil edir. Artilleriya qurğusu güllə əleyhinə zirehlənib. "Vena" özüyeriyən minaatan artilleriya qurğusu aktiv TŞU-2 "Ştora-1" mühafizə sistemi ilə təchiz edilib. Topun döyüş dəsti 70 ədəddir. Şose yolda sürəti saatda 70 kilometr, kəsişmə yerlərdə isə saatda 10 kilometr, şose yolda ehtiyat hərəkəti 600 kilometrdir. Asılqanı fərdi torsiondur. Müxtəlif maneələri dəf etməyə qadirdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda futbol birinciliyi keçirildi



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Azərbaycan Ordusunda idman yarışlarının keçirilməsi haqqında əmrinə əsasən, hərbi qulluqçular arasında futbol birinciliyi keçirildi.*

AFFA-nın hakimlər komitəsi tərəfindən təyin edilən respublika dərəcəli hakimlərin idarə etdiyi futbol birinciliyində qoşun növləri, hərbi hissə və birləşmələrdən 14 komanda 4 qrupda mübarizə apardı. İlk olaraq qrup, sonra dörddəbir, yarımfinal və final oyunları keçirildi. Finalda Beyləqan və Şəmkir yığma komandaları birinci yer uğrunda mübarizə apardılar. Nəticədə Beyləqan komandası 4:2 hesabı ilə yarışın qalibi oldu. İkinci yeri Şəmkir, üçüncü yeri isə Bərdə komandası tutdu.

Yarışın sonunda mükafatlandırma mərasimi keçirildi, qaliblərə kubok, medal və diplomlar təqdim edildi.

Mərasimdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin nümayəndəsi polkovnik Sadiq Paşayev bildirdi ki, ənənəvi olaraq bu cür yarışların keçirilməsinin ordumuzda şəxsi heyətin fiziki hazırlığının yüksək səviyyədə saxlanılmasında müstəsna rolu vardır. "Ötən illərə nəzər salsaq görərik ki, bu il birinciliyin həm təşkili, həm də iştirakçı komandaların hazırlığı yüksək səviyyədədir. Zəif komanda yox idi. Sadəcə həmişə olduğu kimi, bu səfər də layiq olan qalib gəldi. Maraqlı və gərgin mübarizənin finalında, birinci yer uğrunda Beyləqan və Şəmkir komandaları yarışdı. Hər iki komanda yarışa yaxşı hazırlaşmışdı. Bunu oyunun gedişində və əsas vaxt bitəndən sonra hesabın 1:1 qalması göstərirdi. Əlavə vaxtda da hesab dəyişmədiyindən, qalib penaltilərlə müəyyən olundu. Bu mərhələdə Beyləqan komandası 5 topdan 3-nü, Şəmkir komandası isə 5 topdan 1-ni rəqib komandanın qapısına vura bildi. İdmançılar arasında bu cür gərgin mübarizənin keçməsi çox sevindirici haldır. Bu da ondan irəli gəlir ki, Azərbaycan Ordusunda kütləvi idman tədbirləri daim diqqət mərkəzindədir. Cari ilin yarışını digərlərindən fərqləndirən cəhətlərdən biri də odur ki, həmişə AFFA-nın hakimləri kömək məqsədilə turnirlərdə iştirak edirdilər. Bu il isə birinciliyi AFFA-nın hakimlər komitəsi tərəfindən təyin edilən respublika dərəcəli hakimlər briqadası idarə etdilər. Hərbçi olmaq çox şərəfli və məsuliyyətli vəzifədir. Azərbaycan Ordusunun zabiti olaraq ən ümdə arzumuzdur ki, işğal altında olan torpaqlarımızdan düşməni çıxaraq, növbəti yarışlarımızı Qarabağda keçirək."

- Birinciliyə qatılan hər bir komanda yalnız qalib olmaq istəyir, - deyə polkovnik-leytenant Elman Hadıyev söhbətə başladı. - Ancaq unutmamalıyıq ki,



qələbə sadəcə mütəmadi məşqlərdən asılı deyil. Komanda buna psixoloji cəhətdən də hazır olmalıdır. Bu səbəbdən komandanın hər üzvünün fiziki və psixoloji hazırlığını diqqət mərkəzində saxlayırdıq. Birlik komandiri də yarışa hazırlıq prosesi ilə daim maraqlanır, yaranan hər hansı bir problemin dərhal yerində həll olunması üçün əlindən gələni əsirgəmirdi. Çox sevinirəm ki, qarşımıza qoyduğumuz məqsədə çatdıq. Komandamız qalib olaraq geri qayıdır. Unutmamalıyıq ki, Azərbaycan Ordusunun əsgəri, giziri, zabiti olaraq qarşımızda yalnız bir tapşırıq dayanıb - işğalda olan torpaqlarımızı azad etmək. 2016-cı ilin Aprel döyüşlərində bu tapşırığın bir qismini yerinə yetirdik. Ancaq hər an Ali Baş Komandan cənab İlham Əliyevin döyüş əmrini gözləyirik. İnanırıq ki, xalqımıza qələbə sevincini bəxş edəcəyimiz günə az qalıb.

Qalib komandanın məşqçisi Kamal Qasımov yarışa hazırlıq dövründən, məşq zamanı yaranan çətinliklərdən və əldə edilən uğurdan söz açdı.

- Çox sevinirəm ki, artıq ikinci dəfədir bu komanda ilə birinci oluruq. Birinci qalibiyyətimiz 2017-ci ildə olmuşdu. Ötən il təəssüf olsun ki, 4-cü yerə çıxmışdıq. Ancaq bu amil komandanın mübarizə əzmini qıra bilmədi. Bu il yarışlara daha əzmkarlıqla hazırlaşdıq. Qalib olmaq üçün bütün qüvvəmizi səfərbər etdik. Komandanın bütün üzvlərinə xüsusi diqqət yetirilirdi. İdmançılarımıza həm fiziki, texniki məşqlər keçir, həm də onları psixoloji cəhətdən hazırlayırdıq. Məşqlər zamanı futbolçularımızda yorğunluq hiss olunurdu. Bunları nəzərə alıb, məşq proqramını elə qururduq ki, onlar yüngül məşqlərlə bərpa olunsunlar. Təbii ki, iştirak etdiyimiz yarışın mahiyyətini anlayırdıq və idmançılarımızın maksimum dərəcədə qələbəyə motivasiya olmaları üçün çalışırdıq. Bunun nəticəsidir ki, birinci olduq. Yarışa qatılan digər komandaların hazırlığı da yüksək səviyyədə idi. Komandamız final oyununda ilk qolu buraxandan sonra məyus olmuşdu. Ancaq müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Fərid Məmmədovun rəqib komandanın qapısına qol vurması oyunun dönüş nöqtəsi oldu. Onu da vurğulayım ki, komandamız birincilikdə keçirdiyi 6 oyunun qalibi olaraq meydandan ayrıldı. Sevincimi sözlə izah etmək mümkün deyil. Məşqçi olaraq qələbəmizi Qarabağ uğrunda şəhid olan qardaş və bacılarımıza həsr edirəm.

Təəssüratlarını bizimlə bölüşən komandanın kapitanı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elyar Mirzəyev bildirdi ki, məşq prosesi çox çətin və ağır keçirdi. "Komandanın hər bir üzvü üzərinə düşən məsuliyyəti dərk edir, məşqçinin bütün təlimatlarını yerinə yetirirdi. Bu gün qalibiyyətimizlə qarşımıza qoyulan tapşırığın öhdəsindən layiqincə gəldik. Ötən il məğlub olduğumuza çox məyus olmuşduq.



Komanda olaraq bunun təkrar olunmayacağına söz vermişdik. Çox sevinirəm ki, həm hərbçi, həm də idmançı kimi doğma elobama qalib dönəcəm".

Komandanın kapitanı onu da bildirdi ki, ordu sıralarına Aprel döyüşlərindən sonra qatılıb. "Arzum budur ki, Vətən uğrunda şəhid olanların qisasını alaq, bugünkü qələbədən daha böyüyünü işğaldan azad olunmuş torpaqlarımızda qeyd edək".

Artıq 15 aydır ordu sıralarında xidmət edən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Oruc Bayramov bildirdi ki, 8 yaşından idmanın futbol növü ilə məşğul olur.

- Hərbi xidmətə qədər "Qəbələ", "Vətən", "Sabah" futbol klublarında oynamışam. Ancaq Vətənin müdafiəçisi kimi birinci olmaq hissi hər şeydən üstün və dəyərlidir. Ordu birinciliyinə hazırlaşanda bilirdik ki, qalib olmaq üçün bütün çətinliklərin öhdəsindən gəlməliyik. Çox sevinirəm ki, əziyyətimizin bəhrəsini gördük, qələbə qazandıq. Digər komandalar da güclü idi. Hətta axırıncı oyunun son dəqiqələrində Şəmkir komandası qapımıza qol vurmaq istəyəndə hesab elədim ki, uduzmuşuq. Ancaq qapıçımız buna imkan vermədi və oyunun taleyini 11 metrlik cərimə zərbələri həll etdi. Bu yarış, birinci olmağımız yaddaşımda silinməz izlər qoydu. Yarış müddətində rəqib komandaların qapısına 7 qol vurmuşam. Bu qolları Vətənimizin azadlığı və suverenliyi uğrunda şəhid olanlara həsr edirəm. Tərxis olandan sonra da çalışacam ki, üçrəngli bayrağımızı daim ucaldım. Harada olmağımdan asılı olmayaraq, hər an torpaqlarımızı işğaldan azad etmək üçün yenidən ordu sıralarına qatılmağa hazıram.

Futbol meydançasında bir komandada 11 oyunçu oynasa da, komandanın taleyi onlardan yalnız birinin əlindədir - qapıçısının. Beyləqan yığma komandasının qapıçısı müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Yaşar Quliyev də birincilikdə bütün qüvvəsini səfərbər edərək qapıdan qol buraxmamağa çalışdı və bu vəzifənin öhdəsindən gələ bildi. "Qapıçı olmaq çətin və məsuliyyətli vəzifədir. Çünki komandanın bütün üzvlərinin çəkdiyi əziyyət qapıçının diqqətsizliyi ucbatından bəhrəsiz qala bilər. Sevinirəm ki, bu məsuliyyətin öhdəsindən layiqincə gəldim. Artıq 13 ildir futbolla məşğul oluram. 5 il Azərbaycan Milli komandasının kapitanı olmuşam. Bir neçə xarici dövlətdə keçirilən yarışlarda ölkəmizi layiqincə təmsil etmişik. Qapıçı az dincəlməli, çox məşq etməli, daim özünə fikir verməlidir. Çünki meydanda ondan sonra heç kim yoxdur. Birinciliyə hazırlıq zamanı məşqlərimiz yağışa, küləyə, palçığa baxmayaraq mütəmadi olaraq keçirilirdi. Bu da bizi daha dözümlü və istənilən hava şəraitində oynamağa öyrətdi. Əgər qələbə qazanmaq istəyirsənsə, məşqçinin verdiyi tapşırıqlara ciddi riayət etməlisən. Psixoloji cəhətdən də möhkəm olmalısan. Oyun zamanı yaranan vəziyyətin təsiri altına düşməməlisən. Yaranan nöqsanları dərhal unutmalı, yalnız irəli baxaraq, psixoloji gərginliyi aradan qaldırmalısan. Qalib olmağımıza baxmayaraq, rəqib komandalar çox güclü idi. Bu səbəbdən oyunlar zamanı çox gərgin mübarizə gedirdi. Ancaq birinci olmaq üçün mübarizə apardıq və qalib gəldik".

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 601
Nüsxə 3950